Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASIYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 42 (1890) 2 mart 2019-cu il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASIYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ



# Basqal-tarixin özü qədər qədim



(əvvəli ötən sayımızda)

**Azərbaycan qadınları kəlağayıdan həm gündəlik məişətdə, həm də müxtəlif mərasimlərdə istifadə edirdilər. İstifadə edilən kəlağayılar mərasimin xüsusiyyətinə və əhəmiyyətinə uyğun olaraq seçilirdi.**

Təbiidir ki , toy şənliyində istifadə edilən baş örtükləri, yas mərasimlərində geyinilənlərdən rəng ahənginə, naxışların növünə, rəsm quruluşuna, bağlama üsuluna, nəhayət, onu daşıyan qadının yaşına uyğun olaraq seçilirdi. Ənənəyə görə kəlağayıları ya bütövlükdə, ya da bütün sahəni ağ rəngdə saxlayaraq, yalnız onun haşiyəsini boyayırlar. Kəlağayıların naxışları "basmanaxışla" - üzərində naxışlar işlənmiş ağac qəliblərlə yerinə yetirilir. Bəzən kəlağayılar qələmlər vasitəsi ilə də naxışlanır.

Kəlağayı istehsalı yalnız Basqalın adı ilə bağlıdır. İstehsal edilən kəlağayılar yerli iş adamları tərəfindən bazar qiymətinə alınır və xarici dövlətlərə aparılaraq satılırdı. Dünyada məşhur olan Basqal kəlağayıları qısa müddətdə satılır, oradan isə zəruri mallar alınıb gətirilirdi. Bu təkcə bazar münasibətləri, alqı-satqı vasitəsi deyildi, həm də Azərbaycanın milli toxuculuq mədəniyyətini, naxışlarını və ornamentlərini dünyaya tanıtmaq idi. Təbiidir ki, Basqala da alıcı və satıcılar vasitəsi ilə xarici ölkələrin, ayrı-ayrı şəhərlərin mədəniyyət elementləri gətirilirdi.

Təsadüfi deyil ki, orta əsrlərdə Basqalda bir neçə ipəksarıyan və ipəktoxuyan emalatxanalar fəaliyyət göstərmişdir. İpəkçiliklə məşğul olanlar öz məhəllələrində toplaşaraq aralarında iş bölgüsünü müəyyənləşdirirdilər. Müəyyən edilmiş bölgü əsasında hərə bir iş görürdü-kimi ipəyi açır, kimi sarıyır, kimi toxuyur, kimi isə boyaqçılıqla məşğul olurdu. Tarixçilər qeyd edirlər ki, vaxtı ilə Basqalda 220-dən artıq qadın baramanın açılması ilə, 700 usta və 100 şagird darayı, mov, xasxirmə, cəlişi, namazı, tapınlıq, qanovuz kimi ipək parçalarının istehsalı ilə məşğul olmuşlar. Bununla bərabər azərbaycanlıların etnik mədəniyyətinə dərin kök salan ipəkçilik Basqalda ev şəraitində kiçik emalatxanalarda də həyata keçirilirdi. Burada əllə istehsal olunan kəlağayıların parçaları özəlliyi və keyfiyyəti baxımından heç də nisbətən böyük müəssisələrdə istehsal olunan mallardan geri qalmırdı. Əksinə, ailənin bütün üzvləri bu işlə daha ciddi məşğul olduqları üçün onların istehsal etdikləri məhsullar daha da yaxşı təsir bağışlayırdı.

Basqalda sakinlərin əksəriyyəti ipək toxuculuğu və aşılanması ilə məşğul olsalar da, onların arasında ən geniş yayılan məmulat kəlağayı idi. Kəlağayının Şirvanın Şamaxı, Basqal, Müci şəhər və kəndləri ilə yanaşı digər yaşayış məntəqələrində də, Bakının Abşeron kəndlərində, Şəkidə, Qarabağda, Gəncədə, Naxçıvanın Ordubad bölgəsində, Qubada, Təbrizdə hazırlandığı barədə kifayət qədər faktlar vardır.

Orta əsrlərdə Basqalın daş küçələrini dolaşan çoxlu sayda tacirlərə rast gəlmək mümkün idi. Basqaldan başlanan enişli-yoxuşlu yollar, bəzən hava çənli-çisginli, qarlı-çovğunlu olsa da, bu mənzərə gəlib-gedənləri usandırmır, əksinə gözəlliklərlə zəngin olan bu şəhərin təmiz havası, qonaqsevər insanları, onların bənzərsiz toxuculuq işləri qonaqlarda ömrü boyu yaddaqalan duyğular oyadır, xoş təəssüratlar yaradırdı.

Basqal həm də zəngin, çeşidli malları ilə tanınan bazarı ilə seçilirdi. Məlumdur ki, XİX əsrda Şirvanda bazar yalnız Şamaxıda, Salyanda və Basqalda mövcud olub. Bazarın mərkəzində Bazar Meydanı yerləşir. Vaxtı ilə bu meydanda bazara gələnlərin və onların yük heyvanlarının əlindən tərpənmək olmurdu.

Tarixi şəhərlər üçün xas olan bir sıra xüsusiyyətlər Basqal üçün də xarakterikdir. Belə ki, əksər yaşayış məntəqələrində olduğu kimi Basqal da bir neçə məhəlləyə bölünür. Burada əsasən Kələ-küçə, Xarabiyan, Qoşabulaq, Dərəməhəllə, Dəmirçibazar, Qəlibgah, Qalabaşı məhəllələri qədimliyi ilə tanınır. Adlarından göründüyü kimi hər bir məhəllənin sakinlərinin özünəməxsus peşə-sənət sahələri olub və məhəllələrin adları da orada yaşayanların məşğuliyyət sahələri ilə, etnik tərkibi, tarixi keçmişi ilə bağlı olaraq yaranıb. Məsələn; Dəmirçibazar məhəlləsində yaşayanlar əsasən dəmirçiliklə məşğul olmuşlar. Yaşlı sakinlərin dediklərinə görə bu məhəllədə dəmirçilərin bir neçə emalatxanaları olmuşdur. İstehsal edilən dəmir əşyaları elə buradaca satılırmış. Bəzi yerli sakinlərin dediklərinə görə bu məhəllənin bünövrəsini yaşadığı tarixi kəsimdə peşəsi ilə tanınan dəmirçi Hacı Məhərrəm tərəfindən bina edildiyi də söylənilir. Hacı Məhərrəmdən sonra onun övladları, nəvə-nəticələri də bu peşəni yaşadanlar olmuşlar.

Qəlibgah məhəlləsinin sakinləri əsasən kəlağayıların qəliblərini hazırlayan və qəlib basan rəngsazlar idilər. Onlar çeşidli, rəngarəng kəlağayıların qəliblərini sənətkarlıqla hazırlayır, zövqlə rəngləyirdilər. Ölçü və hazırlanma texnologiyalarına görə bir-birindən fərqlənən qəliblər adətən qoz, armud, palıd, cır alma ağaclarından oyma üsulu ilə hazırlanırdı. Qəliblərin üzərində ustalıqla nəbati, həndəsi, kosmoqonik təsvirlər oyulur ki, bu da estetik baxımdan göz oxşayır. Tədqiqatçılar qazıntılar zamanı Basqalın ərazisindən tapılan qəlib formalarının bəzilərinin 250-300 il yaşı olduğunu bildirirlər.

Qoşabulaq məhəlləsi öz adını burada yüz illərdir ki, bir qətrə suyunu azaltmadan, qayaların dibindən süzülə-süzülə, daşların arasından əzilə-əzilə çağlayıb axan bir cüt bulağın adından götürmüşdür.

Xarabiyan məhəlləsinin adı bu məhəllənin vaxtı ilə xarabayabənzər, uçqun yerin yaxınlığında salınması ilə bağlı yarandığı güman edilir. Dərəməhəllənin adı ətrafında yaşı bilinməyən palıd və qoz ağaclarının əhatələndiyi dərənin yaxınlığında qərarlaşmasından yana belə çağırılmışdır. Yaşlı sakinlərin dediklərinə görə bu dərədə bitən qoz ağaclarının şox keyfiyyətli məhsulu olurdu. Bir də görürdün ki, yamacdan düşən yetişmiş qozlar diyirlənə-diyirlənə bənd alırdı. Onun dalınca qaçan uşaqlar bir-birinə çaşdırıcı suallar verirdilər: "Dağdan gəlir hənir-hünür, dörd tərəfi halqa dəmir, döy başına otur gəmir ". O biri uşaq isə bilməcənin cavabını əlüstü xatırladardı ki, açması qozdur.

Kələküçə ("Kələ" yerli şivəyə görə burada böyük anlamındadır) isə Basqalın baş küçəsidir. Bu məhəllənin sakinləri əsasən toxuculuq və boyaçılıqla məşğul olurdular.

**Araşdırmalar göstərir ki, kəlağayıların tarixi Şərqlə-Qərb,Şimalla-Cənub arasında əlaqələndirici körpü olan və yüzilliklər boyu ipəkçilik ölkəsi kimi tanınan Azərbaycanda ipəkçiliyin inkişafı ilə sıx bağlıdır.**

(ardı gələn sayımızda)

*Faiq Şükürbəyli,*
*tədqiqatçı-etnoqraf*